# GÖYƏRÇİN

2

İSSN-0207-4710
2007-cı il

**Bilik klubu**

**Təbiət guşəsi**



**OYUNLAR**
**OYUNLAR**
**OYUNLAR**

## GƏLİN BİRLİKDƏ GÜLƏK, YUMOR PAYINI BÖLƏK!



### Siz uça bilmirsiniz?

Heyvanlar təyyarədə uçurmuşlar. Birdən Qarğa qabağa keçib qanadlarını, quyruğunu ora-bura hərəkət etdirməyə başlayır. Bunu görən Dovşan ondan soruşur:

- Qarğa, sən nə iş görürsən?
- Mayallaq aşıram, qanad-quyruq atıram.
- Olar, mən də sənin kimi edim?
- Qol sənin, bud sənin, özün bilərsən.

Dovşan da qabağa keçib əl-qol atmağa başlayır. Tülkü ona təəccüblə baxıb soruşur:

- Ay Dovşan, sən nə edirsən?
- Mayallaq aşıram, qol-bud atıram?
- Olar, mən də sənin kimi edim?
- Niyə olmur, qol sənin, bud sənin.

Tülkü də sevinclə hərəkətə başlayır. Bütün heyvanlar da eyni qayda ilə hərəkətə başlayırlar. Təyyarədə bir vur-çartlasın qopur ki, gəl görəsən.

Mürgülü Fil səs-küydən ayılır. Təəccüblə heyvanlardan soruşur:

- Qardaşlar, siz nə edirsiniz?
- Hamı bir səslə cavab verir:
- Mayallaq aşırıq, qol-bud atırıq.

Fil soruşur:

- Olar ki, mən də sizə qoşulum?
- Olar, niyə olmur.

Fil hərəkətə başlayan kimi təyyarə qəzaya uğrayır. Heyvanlar təpəsi aşağı yerə sarı gedir və qorxudan bağırırlar. Bunu görən Qarğa onlardan soruşur:

- Qardaşlar, məgər siz uça bilmirsiniz?

Hamı bir səslə cavab verir:

- Yox...

Qarğa gülə-gülə deyir ki, uça bilmirdiniz bəs niyə qol-bud atırdınız?

Rəssam Aytən



**Kaleydoskopda ən çox təkrarlanan fiquru tap!**



Rəssam Mətanət






Sumqayıt şəhər 29 saylı orta məktəbin qabaqcıl sinif müəllimi Soltanova Sənubər 1c sinif şagirdləri ilə birlikdə.